**Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın**

# Q Ə R A R I

Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya (bundan sonra "Komissiya") 2007-ci il 10 mart tarixdə keçirilmiş iclasında müzakirə edilmiş məsələlər üzrə aşağıdakıları qərara alır:

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 sentyabr tarixli Sərəncamına əsasən Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər) icrasının yekunları ilə əlaqədar görülmüş işlər barədə məlumat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin (əlavə olunur).

2. Komissiyanın tərkibində qanunvericiliyin təkmilləşdirilməsi sahəsi üzrə işçi qrup "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə" yeni milli strategiyanın layihəsinin hazırlanması işini sürətləndirsin və layihəni Komissiyaya təqdim etsin.

3. Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər) icrasının yekunları ilə əlaqədar görülmüş işlər barədə məlumatın mətbuatda dərc edilməsi məqsədəmüvafiq hesab edilsin.

**Azərbaycan Respublikası Dövlət Qulluğunu**
**İdarəetmə Şurası yanında Korrupsiyaya**
**qarşı mübarizə üzrə Komissiyanın sədri**

**R.Mehdiyev**

**Bakı şəhəri, "10" "mart" 2007-ci il**

**№ 7**